Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 132-138**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 132-138**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 132-138**

UOT 75.04

S.Q.Əliyeva
Bakı Xoreoqrafiya Akademiyası
AZ1014, Bakı, R.Behbudov, 75

XX ƏSRİN ORTALARINDA AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MƏNZƏRƏ JANRI

Açar sözlər: *mənzərə, Azərbaycan təsviri sənəti, xarici mövzu, Kamil Xanlarov, Baba Əliyev*

Məqalədə XX əsrin ortalarında Azərbaycan təsviri sənətində mənzərə janrından bəhs olunur. Müəllif qeyd edir ki, bu janr Kamil Xanlarov, Baba Əliyev, Nəcəfqulu İsmayılov kimi istedadlı rəssamların yaradıcılığında inkişaf etmişdir. Maraqlıdır ki, bəzi rəssamların yaradıcılığında bu janrın xarakterik növmüxtəlifliyi olan şəhər mənzərələri üstünlük təşkil edir. Nəcəfqulu İsmayılovun xarici mövzuya aid tablolarında şəhər mənzərəsinin maraqlı səhnələri təsvir olunmuşdur. Şəhər mənzərəsi həmçinin Cəmil Müfidzadənin yaradıcılığı üçün də xarakterikdir. O, Bakı qalasının – İçərişəhərin sərt gözəlliyini, onun Qız qalası, Xan sarayı kimi abidələrini böyük məhəbbətlə tərənnüm etmişdir.

С.Г.Алиева

ПЕЙЗАЖНЫЙ ЖАНР В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ АЗЕРБАЙДЖАНА В СЕРЕДИНЕ XX ВЕКА

Ключевые слова: *пейзаж, изобразительное искусство Азербайджана, зарубежная тематика, Камиль Ханларов, Баба Алиев*

В статье говориться о развитии пейзажного жанра в изобразительном искусстве Азербайджана в середине прошлого столетия. Автор отмечает, что в этот жанр получил свое развитие в творчестве таких талантливых художников, как Камиль Ханларов, Баба Алиев, Наджафкули Исмаилов и др. Интересно, что в творчестве некоторых художников преобладает городской пейзаж, что является характерной разновидностью этого жанра. Интересные сцены городского пейзажа изображены в полотнах Наджафкули Исмаилова, относящихся к зарубежной тематике. Городской пейзаж характерен и для творчества Джамиля Муфидзаде, который с большой любовью воспевает суровую красоту бакинской крепости – Ичери шехер, таких ее памятников, как Девичья башня, Ханский дворец и т.п.

S.G.Aliyeva

LANDSCAPE GENRE IN THE VISUAL ARTS OF AZERBAIJAN IN THE MIDDLE OF THE TWENTIETH CENTURY

Key words: *landscape, fine art of Azerbaijan, foreign subjects, Kamil Khanlarov, Baba Aliyev*

The article talks about the development of the landscape genre in the fine arts of Azerbaijan in the middle of the last century. The author notes that this genre was developed in the work of such talented artists as Kamil Khanlarov, Baba Aliyev, Najafkuli Ismailov and others. It is interesting that the urban landscape prevails in the work of some artists, which is a characteristic feature of this genre. Interesting scenes of the city landscape are depicted in the paintings of Najafkuli Ismailov related to foreign subjects. The city landscape is also characteristic of the work of Jamil Mufidzade, who with great love sings the harsh beauty of the Baku fortress - Icheri Sheher, its monuments such as the Maiden's Tower, the Khan's Palace, etc.

XX əsrin 50-60-cı illəri Azərbaycan təsviri sənətinin hərtərəfli yüksəliş dövrü olmuşdur. Bu dövrdə portret, natürmort, məişət janrları ilə yanaşı, mənzərə janrı da inkişaf edirdi. Rəssamlar doğma Azərbaycan təbiətinin füsunkar mənzərəsini tablolarında əks etdirir, bununla da təbiətin lirik-romantik əhvali-ruhiyyəsini, onun estetik məzmununu kətan üzərində canlandırırdılar [4, 88-89].

Mənzərə janrında fəaliyyət göstərmiş rəssamlardan biri də Kamil Xanlarovdur. Kamil Xanlarov rəngarəng əsərlər müəllifidir. Onun palitrasında təbiətin ən parlaq və ecazkar rəngləri qərar tutmuşdur. Eyni zamanda Kamil Xanlarov son dərəcə fərdi, heç kəsə bənzəməyən dəst-xətti ilə seçilir. Xanlarovun mənzərələrini digər mənzərəçilərin yaradıcılıq nümunələrindən fərqləndirən əsas cəhət nədir? Obrazlı desək, Kamil Xanlarovun yaradıcılığı üçün "sərt lirika" xarakterikdir. Bu sərt lirika özünü nədə büruzə verir? Hər şeydən əvvəl rəngarəng landşaft hissələrinin qara (tünd) xətlərlə bir-birindən ayrılmasında. Bir çox rəssamlar kimi, Kamil Xanlarov da soyuq və isti rənglərin növbələşməsini böyük məharətlə əks etdirir, bununla da tabloda bir növ "kolorit tarazlığı" yaradır. Rəssam soyuq rənglərin, xüsusən göy rəngin mahir ustadıdır. Ümumiyyətlə, bir çox rəngkarın onun üçün xarakterik olan rəng tonları vardır. Səttar Bəhlulzadə mavi, Mikayıl Abdullayev çəhrayı, Nəcəfqulu İsmayılov yaşıl rənglə işləməyi sevirdi. Kamil Xanlarovun sevimli rəngi isə göydür. Həm də bu rəng yekcins olmayıb müxtəlif çalarlarda göz önündə canlanır. Rəssam göy rəngdən, çox zaman isə həm də digər rənglərdən məharətlə istifadə edərək uzaqlıq, ənginlik təəssüratı, gözəllik, ahəngdarlıq duyğuları yarada bilir. Eyni zamanda rəssam qırmızıdan da istifadə

edir – göy onun üçün əsas səth, qırmızı isə detal rəngidir. Qırmızını göyün əhatəsinə salmaqla rəssam tabloda müəyyən bir diqqət mərkəzi formalaşdırır, həm göyün, həm də qırmızının ayrı-ayrılıqda diqqəti cəlb etməsinə nail olur. Ümumiyyətlə, Xanlarovun qırmızısı çox parlaq və işıqlıdır, Azərbaycan rəngkarlığında ikinci belə qırmızı yoxdur. Bunu palitra rəngindən daha çox pomada qırmızısı ilə müqayisə etmək olar. "Sahədə" (1963), "Azərbaycan tarlalarında" (1968) və bəzi başqa əsərlərdə təsvir olunan kənd qadınlarının qırmızı (bəzən isə narıncı, sarı və s.) geyimi göy rəngin tonlarından təşkil olunmuş landşaftın fonunda daha lirik və cazibədar təsir bağışlayır [3, 19].

Biz yuxarıda Kamil Xanlarovun yaradıcılıq üslubunu "sərt lirika" kimi səciyyələndirdik. Kamil Xanlarov, şübhəsiz ki, lirik rəssamdır. Onun lirik təbiət mənzərələri Azərbaycan rəngkarlığının inkişafında müstəsna əhəmiyyətə malikdir. Eyni zamanda rəssam mənzərənin detalları arasında tünd zolaqlarla keçidlər qoyur və işıqlı, parlaq rəngləri bir-birindən ayırır, onların Səttar Bəhlulzadənin mənzərələrində olduğu kimi tədricən bir-birinə keçməsinə mane olur. Bu dəst-xətt tablonu ümumən rəngarəng, lirik ovqatlı göstərməklə yanaşı həm də ona bir qaralıq, tündlük, sərtlik bəxş edir. "Sərt lirika" K.Xanlarovun mənzərələrini və ümumiyyətlə, yaradıcılığını xarakterizə edən əsas kolorit xüsusiyyətlərindən biridir.

K.Xanlarov təkcə mənzərə yox, həm də kənd mövzusunda lirik ovqatlı tablolar yaradan rəssamlardandır. Onun yuxarıda adlarını çəkdiyimiz tablolar həm mənzərə, həm də kənd mövzularını özündə birləşdirir. Qeyd edək ki, rəssamın 50-60-cı illərdə yaratdığı kənd mənzərələrində lirik təbiətin əhvali-ruhiyyəsi əmək mövzusundan daha qabarıq təsir bağışlayır. Rəssam üçün milli geyimli qadın obrazları, onların göy otlar üzərində açdığı süfrə daha önəmlidir. Çevrədəki tarlalar, arxa plandakı dağlar (bunların çoxu göydür), ağ buludlu mavi səma isə ikinci mövqedədir, sanki birincini daha qabarıq ifadə etmək üçün yardımçı bədii vasitə kimi çıxış edir.

K.Xanlarovun mənzərələri naturanın təbiiliyi, rənglərin təmiz və işıqlı, üfüq xəttinin uzaq olması ilə seçilir. "Çay qırağında", "Ordubad dağları", "Noraşen vadisi" və başqa tablolarda geniş təbii relyef formaları, bir-birindən ayrılan rəng keçidləri üstündür. Bununla yanaşı, həmin mənzərələr üçün lirik ovqat xarakterikdir.

Kamil Xanlarovun Bakıda doğulub boya-başa çatmasına baxmayaraq, onu abşeronçu-rəssam adlandırmaq olmaz. Bununla belə, rəssamın Abşeronun səfalı guşələrini əks etdirən mənzərələri də vardır. Belə mənzərələrdən "Bilgəhdə axşam" (1964), "Bilgəhdə küçə" (1968), "Ceyranbatan gölü" (1987) və başqalarını göstərmək olar. Rəssamın mənzərə əsərlərinə xas olan ümumi cəhətlər – parlaq rənglər, landşaft hissələrinin bir-birindən tünd zolaqlarla ayrılması həmin tablolarda da özünü büruzə verir. Rəssam Abşeron mənzərələri ilə yanaşı, Xəzər dənizini də təsvir etmişdir. Onun "Estakada" adlı əsəri buna misal ola bilər. Adəti

xilafına olaraq, rəssam burada parlaq və təmiz rənglərdən az istifadə edib. Tablonun çox hissəsini tutan səma başdan-başa ağır, boz-göy buludlarla örtülmüşdür. Ön planda dəniz buruqlarına sarı uzanan yol – estakada təsvir olunub. Səma ilə müqayisədə dənizin göy suları daha parlaq və təbii təsir bağışlayır. Arxa planda – dənizin ortasında neft buruqları görünür. Əsərin o qədər də uğurlu alındığını demək olmaz. Kompozisiyada qeyri-müəyyən bir süstlük, durğunluq hökm sürür. Əsərin neft mövzusunda olduğuna baxmayaraq kompozisiyada keç kəs gözə dəymir.

50-ci illərin sonu - 60-cı illərdə milli mənzərə janrını təkmilləşdirən sənətkarlardan biri də Baba Əliyev olmuşdur. Onun yaradıcılığı nümunəsində mənzərə janrı yeni inkişaf səviyyəsinə yüksəldi.

Baba Əliyev sənətə 40-cı illərdə qədəm qoymuşdur. Artıq həmin dövrdə mənzərə və tematika mövzularında kifayət qədər sənət nailiyyətləri əldə olunmuşdu. Azərbaycan təbiətinin füsunkar lövhələri S.Bəhlulzadə, M.Rəhmanzadə, E.Şahtaxtinskaya, K.Xanlarov, L.Feyzullayev, M.Tağıyev və başqalarının erkən əsərlərində öz təcəssümünü tapırdı. Azərbaycan mənzərə məktəbinin "orta nəslinə" daxil olan rəssamlar – Baba Əliyev, Nəcəfqulu İsmayılov, Mahmud Tağıyev və başqaları bu janrda ciddi uğurlar əldə etməklə yanaşı, kənd və sənaye mövzularına, portret və natürmort janrlarına da böyük həvəs göstərirdilər. Bu mənada sözü gedən rəssamları sırf mənzərəçi kimi təqdim etmək olmaz. Baxmayaraq ki, mənzərə janrı onların yaradıcılığında önəmli rol oynayır.

Baba Əliyevin palitrası Kamil Xanlarovunku kimi parlaq deyil, lakin təbii və inandırıcıdır. B.Əliyevin mənzərələrində həm coşqun Xəzər ("Xəzər sahilində axşam", 1964), həm sakit, dalğın çöl ("Muğanda", 1963), həm də səfalı dağ mənzərəsi ("Çuxuryurd", 1965) tərənnüm olunmuşdur. B.Əliyev mənzərələrdə həm lirik, həm də romantik, ekspressiv cəhətləri əks etdirməyə çalışırdı. Rəssamın "Xəzər sahilində axşam" mənzərəsində coşqun ekspressivlik, romantik mahiyyət özünü aydın büruzə verir. Sahil qayalarına çırpılan köpüklü ləpələr tünd göy fonda daha da ağ görünərək kompozisiyada maraqlı bir ekspressivlik, emosionallıq, soyuq rənglərdən ibarət kolorit təzadı yaradır.

Rəssamın "Tut ağacı" (1965), "Çay qırağında" (1952), "Otlaq" (1963), "Mənzərə. Şahdağ" (1963) və başqa mənzərələri Azərbaycan təbiətinin füsunkar guşələrini əks etdirir. Bu əsərlərə diqqət yetirdikdə B.Əliyevin 50-ci illərdəki realist ifadə formalarından 60-cı illərdəki romantizm əhvali-ruhiyyəli rəng yaxmalarına keçdiyini aydın hiss etmək olur. "Çay qırağında" əsəri dövrün realist ifadə formalarını çox dəqiq, sərrast şəkildə ifadə edir və yüksək bədii üslubda işlənmişdir. Burada bütün yaxmalar dəqiq, realist ifadə formalarına tabedir. Lakin sonrakı mənzərələrdə rəssam ekspressiv formaları üstün tutmuş, daha iri yaxmalardan istifadə etmiş, realist ifa tərzini romantik görünüşlə əvəzləmişdir. Onun "Muğanda" tablosu kompozisiya, rəng və romantik məzmun baxımından

fransız impressionisti Klod Monenin "Jivernidə ot tayası" (1886) əsərini xatırladır.

B.Əliyevin bir çox mənzərə əsərləri üçün lirik ovqat xarakterikdir. Rəssam bu xüsusiyyəti müxtəlif vasitələrlə əldə edir. Səfalı təbiət (yaxud mədəni landşaft), parlaq rənglər, qız-gəlin təsvirləri rəssamın tablolarında lirik ovqat yaradır. Bu baxımdan onun "Meyvə bağı" , "Bahar" və s. tablolarını qeyd edə bilərik. Misal üçün, "Meyvə bağı" tablosunda arxada görünən göy dağların, bir-birindən aralı yerləşən meyvəli ağacların fonunda ön planda gənc qız və qadın təsvir olunmuşdur. Onlar meyvə yığım ilə məşğuldurlar. Gənc qız əlində yeşik, qadının qarşısında durmuşdur. Qadın isə əyləşərək qarşısındakı yeşikdə olan meyvələri sanki saf-çürük edir, yaxşılarını seçərək ayırır. Əsərdə mənzərə motivləri zəhmət mövzusu ilə qarşılıqlı əlaqədə verilmiş, eyni zamanda burada lirik ahəng də öz dolğun əksini tapmışdır.

Mənzərə janrının inkişafında Nəcəfqulu İsmayılovun da xidmətləri vardır. Rəssam xarici mövzuda maraqlı, rəngarəng şəhər mənzərələri işləmişdir. Onun zəngin rəng həlli ilə seçilən şəhər mənzərələrini Böyükağa Mirzəzadənin, Tahir Salahovun, Xalidə Səfərovanın eyni tipli tabloları ilə müqayisə etmək olar. "Qrand opera. Paris" (1963) tablosu Nəcəfqulunun xarici tematikasının yaddaqalan əsərlərindən biridir. Çox zəngin rəng həllinə malik olan bu tabloda Parisin mərkəzi meydanlarından biri təsvir olunub. Arxa planda, tablonun mərkəzində Qrand operanın klassik üslubda inşa edilmiş, antik sütunlarla bəzədilmiş nəhəng, əzəmətli binası görünür. Rəssam binanı tünd boyalarla təsvir etməklə onu mavi, işıqlı səmanın fonunda daha aydın və dolğun görünməsinə nail olmuşdur.

Meydan boyu şütüyən al-əlvan avtomobillər, həmçinin qonşu binaların birinci mərtəbələrinin üstündəki günəşdən qorunmaq üçün asılmış örtüklər tablonu bir qədər də rəngarəng, yaraşıqlı göstərir.

Rəssamın Fransa seriyasından olan digər tablolarında da parlaq rəng həlli, təbii natura, bol işıq xarakterikdir. "Nitsada küçə" tablosunda günəş işığına bələnmiş, kompozisiyanın içərilərinə doru uzanıb gedən küçə, sağ tərəfdə fasadına gün düşən böyük, işıqlı ev görünür. Sol tərəf isə kölgədə qaldığından bu tərəfdəki binalar tünd, kölgəli fonda işlənmişdir. İşıq və kölgənin təzadı əsərin rəng həllinin əsasında dayanır. Arxa planda, küçənin qurtaracağında binaların arasından göy dağlar, ondan yuxarıda isə günəşdən rəng alan gömgöy səma görünür.

Günəşin yaratdığı maraqlı işıq-kölgə effekti Nəcəfqulunun "Notrdam cənubdan" (1961) tablosunda daha aydın hiss olunur. Rəssam bu tablonu işıqlı gündə, naturadan işləmişdir. Səhər tezdən gün yeni çıxdığına görə onun şüaları çəpəki düşərək qədim Notrdam kilsəsinin üzü şərqə baxan fasadını narıncı-qırmızı rəngə bürümüşdür. Kölgədə qalan cənub divarları isə tünd göy rənglərlə işlənib. Yanaşı olan göy və narıncı divarlar bu qədim kilsə binasını daha ecazkar və əsrarlı göstərir. Bülövlükdə bu tabloda əsasən göy rəng çalarları üstündür. Bunlar ön plandakı Sena çayı və yol, ətraf meşəliklər, gün hələ çox qalxmadığından göylüyü tam çəkilib getməyən səmadır. Tablonun mərkəzində isə günəşdən rəng alan

Notrdam öz parlaq qızılı rəngləri ilə əsərdə maraqlı rəng təzadı yaradır.

Nəcəfqulu İsmayılov işıqlı tablolar ustasıdır. Baba Əliyevdən fərqli olaraq o, rənglərdən əsasən qatışıqsız, "xalis" formada istifadə edir, kölgə effektini isə daha tünd, lakin yenə də təmiz rənglərlə yaradır. Bu baxımdan onun tablolarının rəng həllini Kamil Xanlarovun parlaq koloriti ilə müqayisə etmək olar. Bu cəhət Nəcəfqulunun mənzərə əsərlərində, həmçinin mənzərə motivlərinin fonda geniş yer aldığı portretlərində özünü büruzə verir. Rəssamın "Mənzərə" adlı tablosunda işıqlı payız meşəsi təsvir olunub. Günəşin işıqlandırdığı ağaclar yaşıl, sarı, qırmızı, göy rənglərə bürünmüşdür. Lap yuxarına, ağacların başında isə işıqlı, şəffaf göy səmanın bir parçası görünür. Bu işıqlı elementlər birləşərək tabloya lirik əhvali-ruhiyyə bəxş edir.

Şəhər mənzərələrinə müraciət edən rəssamlardan biri də Cəmil Müfidzadədir. Rəssamın yaradıcılığında İçərişəhərin qrafik təsvirləri mühüm yer tutur. Bu əsərlərdə rəssam doğma şəhəri böyük məhəbbətlə tərənnüm etmişdir.

C.Müfidzadənin Bakı seriyası 60-cı illərdə formalaşmışdır. Rəssam bu əsərləri "Bakı albomu" silsiləsində birləşdirmişdi. "Qala divarları" (1965) adlı qrafik rəsmdə əzəmətli bürclər tutqun, buludlu səmanın fonunda daha möhtəşəm görünür. "Xan sarayı" adlı qrafik vərəq olduqca maraqlı, qeyri-adi kompozisiya həllinə malikdir. Kompozisiyanın əsas elementi kimi sarayın diş-diş formada olan cənub-şərq fasadı çıxış edir. Fasadın bu formasına diqqət yetirən rəssam onu olduqca qabarıq işləmiş, binanın görünüşünə dərin simvolik məzmun və mahiyyət daxil etmişdir. Saray ilk baxışda dartılmış nəhəng qarmonu xatırladır. C.Müfidzadə sarayın real memarlıq proporsiyalarını və realist ifadə tərzini saxlamaqla onu əsrarəngiz, improvizə olunmuş rakursda əks etdirib. Bununla da Şirvanşahlar sarayı (onun dənizə baxan diş-diş formalı cənub-şərq fasadi) İçərişəhərin Qız qalasından sonra bədii baxımdan ustalıqla simvolizə edilmiş ikinci nadir memarlıq abidəsinə çevrilib. Qeyd etmək lazımdır ki, xan sarayının qarmonşəkilli "açılışı" rəssamın daha əvvəllər işlənmiş başqa rəsmlərində də yer alır. "...Cəmil Müfidzadə tapdanmış yolla getmək fikrində deyildi. Odur ki, İçərişəhərlə hər yeni təmasında, onu cəlb edən yerləri müşahidə etməklə onların vərəqlərdə çoxsaylı eskizlərini yaradırdı. Onu daha çox bütün bu gerçəkliyi hansı forma-biçimdə tamaşaçıya çatdıracağı düşündürürdü" [1, 35].

Ümumiyyətlə, Cəmil Müfidzadənin yaradıcılığında qədim Bakı seriyasının ən qabarıq cəhətlərindən biri tarixi-memarlıq abidələrinin bədii təcəssümüdür. Rəssam bu abidələri realist üslubda işləməklə yanaşı, onlara diqqəti cəlb edən simvolik görünüş, semantik məna yükü verir. Bu baxımdan "Şirvan qapıları" əsəri olduqca xarakterikdir. Plakat səciyyəli bu rəsmin kompozisiyası bir-biri ilə əlaqələndirilmiş iki müstəqil hissədən ibarətdir. Aşağı hissədə massiv görünüşlü, el arasında Qoşa qala qapısı kimi tanınan Şirvan qapıları təsvir olunub. Onun üstündə isə nəhəng buta şəkilli, üç rəmzi alov dili göylərə ucalır (burada göy sözünü şərti mənada işlədirik, çünki rəsm ağ neytral fonda işlənib). Açıq-qırmızı rəngli alov

dilləri çevrəsində qədim Bakının yığcam halda verilmiş memarlıq abidələri görünür.

Azərbaycan təsviri sənətində "Xinalıq silsiləsi" adətən M.Rəhmanzadənin adı ilə assosiasiya olunur. Lakin maraqlıdır ki, C.Müfidzadə də olduqca maraqlı, özünəməxsus ifadə tərzinə malik Xınalıq silsiləsi yaratmışdır. Buraya həm əlvan koloritli rəngkarlıq əsərləri, həm də aşağı rəng həddində işlənmiş az koloritli rəngli qrafika nümunələri daxildir. C.Müfidzadə Xınalıq mövzusuna 60-70-ci illərdə müraciət etmiş, sonralar yenidən bu mövzuya qayıtmışdır. Göründüyü kimi, rəssamın yaradıcılıq yolunun az qala yarım əsrlik səhifəsi bu qədim, əsrarəngiz yurd yeri ilə bağlıdır.

Son olaraq bir daha qeyd edək ki, ötən əsrin ortaları təsviri sənətdə mənzərə janrının yüksəliş illəri olmuşdur. Hazırkı məqalədə həmin mövzuda işlənmiş əsərlərin çox kiçik bir qismінə nəzər salındı. Lakin hətta bu kiçik məlumat belə milli mənzərə janrının geniş yaradıcılıq imkanlarından xəbər verir. Mənzərə janrı bu gün də Azərbaycan təsviri sənətində əhəmiyyətli yer tutaraq tarixən formalaşmış yüksək bədii ənənələri davam və inkişaf etdirir.

ƏDƏBİYYAT

1. Əliyev Z. Cizgilərə hopan ömür. Bakı, "Oskar", 2011.

2. İçərişəhər Azərbaycan tarixində (kollektiv nəşr). Bakı, "Şərq-Qərb", 2015.

3. Kamil Xanlarov, Baba Əliyev, Nəcəfqulu İsmayılov. Sərvət. (mətnin müəllifləri T.Əfəndiyev, G.Quliyeva). Bakı, "Şərq-Qərb", 2013.

4. Искусство Советского Азербайджана. Москва, «Советский художник», 1970.

Məqalənin redaksiyaya daxil olma tarixi: 04.12.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
tarix üzrə elmlər doktoru Fuad Məmmədov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.